# "Bir qadına..." silsiləsindən



Əbülfət MƏDƏTOĞLU

### YAŞAM GERÇƏKLİYİ...

Həsrət çimərlikdədi -
Yuyunur ürəyimdə...
Dəliliyə ehtiyac -
duyulur ürəyimdə!

Ruhuma sərt baxışla
Qar-çovğunla, yağışla...
Sevgim, Allah, bağışla -
Soyunur ürəyimdə!..

Acım dili göynədir
Dil, nə bilir, göy, nədir?
Qəm o qədər köhnədir -
Soyulur ürəyimdə...

Darıxıb öz-özümdən...
Düşdüm mən öz gözümdən...
Sənsizliyin üzündən -
Oyulur ürəyim də!

### GÜNÜMÜN AHI

Bilə-bilə, ya fərqinə varmadan
Açıq-aşkar bitirirsən üreyi...
Sanki yarpaq qoparırsan tarmadan-
Yelə verib - itirirsən ürəyi!..

O BİR kimi əlçatmazdın, göydəydin
Yerdən baxıb mən də çəkdim göy dərdin!
Təbəssümlə, nəfəsinlə göyərtdin -
Sən hər hala gətirirsən ürəyi!..

Süzdün dərdi tam ürəyim biçimdə
Çəkinmədən birnəfəsə içim də!..
Göz yaşını gizlədərək içində -
Nəm kirpiklə ötürürsən ürəyi!

Bu məqamda qurbanlığa dönüm ki
Saçlarını kipriyimə hörüm ki...
Allah mənə imkan versin, görüm ki -
Ayaq altdan götürürsən ürəyi!..

***

Nəfəsin göz muncuğum,
Özün ümid yerimsən...
Sən mənə sevgi dolu
Gözəl ömür vermisən -
Dəlisi olduğum, Qadın!

Baxışların işıq payım-
Quyudan çəkən kəndirim...
Əllərini qoy mən sayım
Əllərim yanan təndirim -
Dəlisi olduğum, Qadın!

Tellərin uzanan yolum
Burulub qayıdır sənə...
Hər yandan Məcnun bu könlüm
Vurulub qayıdır sənə -
Dəlisi olduğum, Qadın!

Ürəyin qibləm, güvənim-
Həm də ruhuma yuvadı...
Ay məni gizli sevənim
Adın müqəddəs duamdı -
Dəlisi olduğum,Qadın!

### SƏNİ

Səssizliyin içində
səssiz qala bilmədim...
Səssizliyin içindən -
səssiz ala bilmədim -
Səni!..

Sükutun caynağında
fikrə dala bilmədim...
Sükutun caynağından -
çəkib ala bilmədim -
Səni!..

Tənhalığın çökdüyü -
vücudumu əzirdim...
Ümidimin sökdüyü
dan yerində gəzirdim -
Səni!...

Xəyalımla yuxumu
qarışdırdım və... yozdum...
"Görünməyən Ulduzlar!"-
dəftərindən mən pozdum-
Səni!

... İçimdən qaçan özüm -
Bu halıma çəkildim...
Bir də baxıb gördüm ki,
ürəyimə əkirdim -
Səni!

### MƏSCİD DİVARI ÖNÜNDƏ DUA

Mənim dualarımı -
Gözmuncuğu say , gülüm...
Bu dualar ömürdən -
Paydı sənə, pay, gülüm!

Qaldım quyu dibində
Əlim "Unut! " -
cibində...
Adım varsa dilində -
Hay ver mənə, hay, gülüm...
Üfürülüb şişəcək
Ahıma şeh düşəcək...
Ağzımda dil bişəcək -
Belə getsə tay, gülüm...

Qəlbi taxtından devir
Hər gün başına çevir...
Əbülfət məni sevir! -
Deyib, bunu yay, gülüm!

### İSTƏYİRSƏNSƏ, YAŞAYIM ...

Sən mənə
bir damla
ümid
bağışla -
yaşayım...
Ümidin
şehi kimi ,
kirpikdən
qopan
gilə yağışla -
yaşayım...
məniim,
adımı adıyla
bir ömrün dadıyla
həyatın -
hər qatıyla
və sevdiyim
qadınla
naxışla, yaşayım...
mənə -
Sən qapı açdın
Məcnundan qalan dinə!
Allahım,
dözüm
və bir də
şirin bir zülüm
ver mənə!
Ömür boyu Sənə -
alqışla, yaşayım!

### SÖZLƏ ÇƏKİLƏN ŞƏKİL

Həmsöhbətim,
dinləyənim
və
gözlərimə baxa- baxa
susanım -
dörd divar,
bir də
kirpikdən
ayrılmaq istəməyən yaş...
Adamlarla
danışmağı,
görüşməyi,
fikirləri bölüşməyi
hətta bunu
düşünməyi -
unutdurur
və unudur
Sənin olan ürəyim
yavaş, yavaş...
Öldürülən
günlərə...
söndürülən
içimə -
halsız durumla,
solğun baxışla
baxıb...
inandığı dinlərə
and verir
səni ruhum :
- Demə,
nə də incimə...
Belə olmayaydı kaş...

### ÖZÜMƏ ÖZ TƏSƏLLİM....

hər çiçəyin,
hər gülün
tumurcuq vaxtı,
sevgi taxtı,
yaşam baxtı
və bir də,
kəpənəyə,
arıya
qovuşması
var, bu dünyada...
hər bəndə,
hər inanc
sahibi -
Allahına üz tutub ,
əl açıb,
diz çökür
və ürəyini
ortaya tökür...
dua zamanı,
ibadət anı...
həm çiçəklər,
həm güllər ,
həm arılar,
kəpənəklər...
deməli,
həm də bəndələr
öz baxtını,
öz taxtını
şərəflənd irər -
sevgisiylə,
duasıyla...
və mən
belə anlarda
özümü
kəpənək də bilirəm,
arı da,
bəndə də!..
çünki məndə də
Tanrıya,
onun verdiyi sevgiyə -
yəni SƏNƏ -
qovuşmaq istəyi
ifadə olunur
tək qalmış
bir Boz qurd
ulamasıyla!..

### DAN ÜZÜNDƏN DƏRDİYİM İSTƏK

Yayınıb
hamının gözündən
qapını bağlayıb,
pərdəni çəkək...
Dörd divar arasında
bir tala
sevgi əkək...
suyu-
qanımız...
günəşi -
nəfəsimiz...
göyərsin.
Boy atsın,
əli-qolu,
bütünlüyü
və bir də
seçdiyi yolu
gedib
lap buludlara çatsın...
Göy üzündən o yanda
bir maraq
oyatsın-
SEVGİMİZ !
və ona
sarılmış
SEVİRƏM!- pıçıldayan
səsimiz...

### BİR YAŞAM MƏNZƏRƏSİ

Bulud ələkdən keçir
narın...narın...
Yar qoxulu havadı -
barın, barın!..

Dərd sinəmdə duz dağı
Ürək həsrət dustağı...
Ərimirsə buzlağı -
yarın, yarın!

İllər susubdu - laldı
Demə xatirəm baldı...
Altda qoşa iz qaldı -
qarın... qarın...

Düşün , nə də fikir çək
Ortada Məcnun ürək...
Xərclə istədiyin tək -
varın, varın!..

Səndə mələk səbri var
Bu səbrin də cəbri var...
ovcun boyda qəbri var -
yarın.... yarın...
Halım sığmır qaşığa
Baxıb sən mən aşiqə...
Aç qolunu işığa -
sarın, sarın!..

### DÜŞMƏSİN

Bir az aralı dayanım
kölgəm üzünə düşməsin...
Adımı çəkəndə qopan -
damla, dizinə düşməsin...

İçim laldı, çölümsə şən
dərdlə ortaq. kədərlə tən...
Kirpikləri az qırp ki, sən -
Qopub , gözünə düşməsin!..

Mən cilovu tutsam da bərk
tərk götürmür, bu xəyal, tərk!
Edim sənə kiçik bir ərk -
Öpüm, izi də düşməsin...

Bu açılan sabahların
mən yaşayım, mən , ahların!
Elədiyim günahların -
adı izinə düşməsin!

Əbülfətin axdığı sel,
Haqdan gəlir, bilir bu el!
Kömək üçün atdığın tel -
çölün düzünə düşməsin!

### ÖZÜMƏ, HƏM DƏ SƏNƏ DEDİKLƏRİM

Sən elə bilmə ki,
asandı
Hamıdan uzaqlaşıb,
dörd divarla
və özünlə
heç kimin
eşitmədiyi
söhbəti etmək...
Sən elə bilməki,
asandı
təkliklə qucaqlaşıb,
içindəki qübarla
və özünlə
heç kimin çılpaq ,
üzünə demədiyi
sözün dalınca getmək...
Sən elə bilməki,
dörd divar da,
qübar da,
təklik də,
söz də,
söhbət də...
və daha nələr də
sözə baxandı...
Yox!- tələsmə,
sözümü kəsmə...
Sən elə bil ki,
bütün elə bildiklərin
mənim
dərdin əlindəki
yaxamdı...
Lap bir az da sərt desəm
mənim qaraçuxamdı!..
aparır arxasınca məni...